*ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 6, Sayı: 6, s. 184–188
*SCIENTIFIC RESEARCH International Scientific Journal.* June 2026, Volume: 6, Issue: 6, pp. 184–188
DOI: https://doi.org/10.36719/2789-6919/60/184-188

# Ağarəhimin bədii yaradıcılığında psixologizmin ifadə xüsusiyyətləri

**Aysel Zərbəliyeva**

***Xülasə.*** *Məqalədə Azərbaycan uşaq ədəbiyyatının tanınmış nümayəndələrindən olan Ağarəhimin bədii yaradıcılığında psixologizmin ifadə xüsusiyyətləri tədqiq edilmişdir. Yazıçının əsərlərində insanın daxili aləminin, emosional yaşantılarının, düşüncə və hisslərinin bədii təsvir vasitələri ilə təqdim olunması araşdırılmışdır. Tədqiqat zamanı "Əsgər anası", "Canavar balası" və "Uşaq hekayələri" əsərləri psixoloji aspektdən təhlil edilmiş, qəhrəmanların ekstremal vəziyyətlərdə davranış xüsusiyyətləri, qorxu, narahatlıq, tənhalıq, mərhəmət, analıq hissi və mənəvi dözümlülük kimi emosional halları öyrənilmişdir. Müəllifin daxili monoloq, psixoloji detal, emosional təsvir, simvolik ifadə vasitələrindən istifadə bacarığı onun yaradıcılığının mühüm xüsusiyyəti kimi dəyərləndirilmişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Ağarəhimin bədii irsi Azərbaycan ədəbiyyatında psixoloji realizmin inkişafında mühüm rol oynamışdır.*

***Açar sözlər:*** *Ağarəhim, psixologizm, bədii yaradıcılıq, psixoloji realizm, emosional vəziyyət, daxili aləm, uşaq psixologiyası*

Bakı Qızlar Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: azerbaliyeva73@gmail.com
Daxil oldu: 9 Mart 2026; Qəbul edildi: 13 İyun 2026; Onlayn dərc edildi: 30 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Features of the Expression of Psychologism in Agharahim's Literary Creativity

**Aysel Zarbaliyeva**

***Abstract.*** *The article investigates the features of the expression of psychologism in the literary creativity of Agharahim, one of the well-known representatives of Azerbaijani children's literature. The presentation of the inner world of a person, emotional experiences, thoughts, and feelings through artistic means in the writer's works is examined. During the research, the works "Mother of a Soldier", "Wolf Cub", and "Children's Stories" were analyzed from a psychological perspective, and the characters' behavioral characteristics in extreme situations, as well as emotional states such as fear, anxiety, loneliness, compassion, maternal feelings, and moral resilience, were studied. The author's skillful use of internal monologue, psychological detail, emotional description, and symbolic means of expression is evaluated as an important feature of his creativity.*

*The research findings reveal that Agharahim's literary heritage has played a significant role in the development of psychological realism in Azerbaijani literature.*

***Keywords:*** *Agharahim, psychologism, literary creativity, psychological realism, emotional state, inner world, child psychology*

---

Baku Girls University, Master's student
E-mail: azerbaliyeva73@gmail.com
Received: 9 March 2026; Accepted: 13 June 2026; Published online: 30 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Bədii ədəbiyyat insan həyatının müxtəlif tərəflərini əks etdirən mühüm mənəvi sərvətlərdən biridir. Ədəbiyyat yalnız hadisələrin və xarici gerçəkliyin təsviri ilə kifayətlənmir, eyni zamanda, insanın daxili aləmini, hiss və duyğularını, düşüncələrini, psixoloji yaşantılarını da əks etdirir. İnsan xarakterinin dərin qatlarının açılması, onun mənəvi aləminin bədii şəkildə təqdim edilməsi psixologizm anlayışı ilə bağlıdır. Psixologizm bədii əsərdə insanın daxili dünyasının, psixi vəziyyətinin və emosional yaşantılarının təsviridir. Bu anlayış obrazların xarakterinin daha dolğun açılmasına, onların davranış motivlərinin izah edilməsinə xidmət edir. Psixologizm vasitəsilə oxucu qəhrəmanın yaşadığı hissləri daha yaxından duyur, onunla emosional bağ qurur və hadisələri onun daxili dünyası prizmasından dərk edir. Azərbaycan ədəbiyyatında psixoloji təsvirlərin zəngin ənənələri mövcuddur (Cəfərov, 1978; Hacıyeva, 2021; İmanov, 2021; Qasımzadə, 2005; Rzayeva, 2010).

Bu ənənələrin inkişafında müxtəlif sənətkarların mühüm xidmətləri olmuşdur. Ağarəhim də insan psixologiyasını dərindən duyan və onu bədii yaradıcılığında ustalıqla əks etdirən yazıçılardan biridir. Onun əsərlərində uşaqların saf duyğuları, anaların iztirabları, müharibənin doğurduğu mənəvi sarsıntılar, insanın qorxu və ümid arasında yaşadığı daxili mübarizə xüsusi həssaslıqla təsvir olunur. Ağarəhimin yaradıcılığında psixologizmin ifadə xüsusiyyətlərinin araşdırılması həm ədəbiyyatşünaslıq, həm də psixologiya baxımından əhəmiyyətlidir. Bu tədqiqat yazıçının sənətkarlıq xüsusiyyətlərini müəyyən etməklə yanaşı, insan davranışının bədii inikasının öyrənilməsi baxımından da mühüm elmi əhəmiyyət kəsb edir.

## Metodlar

Tədqiqatın əsas məqsədi Ağarəhimin yaradıcılığında psixologizmin ifadə vasitələrinin sistemləşdirilməsi və təhlil edilməsidir.

Ağarəhimin bədii yaradıcılığında psixologizmin xüsusiyyətləri araşdırılarkən tədqiqat aşağıdakı elmi metodlar əsasında aparılmışdır: təsviri metod (dil faktlarının izahı və şərhi), müqayisəli metod, tarixi-linqvistik yanaşma və semantik analiz (leksik vahidlərin məna dəyişmələrinin araşdırılması).

## Nəticələr

*Ağarəhimin yaradıcılığında psixologizmin ifadə vasitələri.* Ağarəhimin əsərlərində psixologizm müxtəlif bədii vasitələr vasitəsilə ifadə olunur. Yazıçı insanın daxili aləmini açmaq üçün daxili monoloqlardan, psixoloji detallardan, portret təsvirlərindən, dialoqlardan və simvollardan geniş istifadə edir. Bu vasitələr obrazların xarakterinin daha dolğun təqdim edilməsinə xidmət edir. Daxili monoloq qəhrəmanın daxili düşüncələrinin birbaşa təqdim edilməsidir. Bu üsul vasitəsilə oxucu

qəhrəmanın hiss və düşüncələrini daha yaxından izləyə bilir. Ağarəhim əsərlərində bu üsuldan istifadə etməklə obrazların keçirdiyi narahatlıq, qorxu və tərəddüdləri inandırıcı şəkildə təqdim edir.

Psixoloji detal da yazıçının müraciət etdiyi əsas vasitələrdən biridir. Bəzən obrazın baxışları, susqunluğu, əllərinin titrəməsi və ya göz yaşları onun daxili vəziyyətini uzun izahlardan daha təsirli şəkildə ifadə edir. Müəllif məhz belə detallarla obrazların emosional vəziyyətini oxucuya çatdırır. Portret təsvirləri də psixologizmin mühüm elementlərindəndir. Obrazların üz ifadələri, baxışları, mimikaları və zahiri görünüşlərindəki dəyişikliklər onların keçirdiyi psixoloji gərginliyin göstəricisinə çevrilir. Yazıçının istifadə etdiyi simvolik vasitələr də diqqətəlayiqdir. Təbiət hadisələri, müxtəlif əşyalar və məkan təsvirləri qəhrəmanların daxili vəziyyətinin ifadəsinə xidmət edir. Bu xüsusiyyət Ağarəhimin yaradıcılığına emosional dərinlik qazandırır.

*"Əsgər anası" əsərində psixologizmin ifadəsi.* Ağarəhimin "Əsgər anası" əsəri psixoloji baxımdan müəllifin ən təsirli əsərlərindən biri hesab oluna bilər. Əsərin mərkəzində övladı cəbhədə olan bir ananın keçirdiyi mürəkkəb emosional vəziyyət dayanır. Yazıçı ana obrazının daxili aləmini böyük həssaslıqla təsvir edir və onun yaşadığı iztirabları oxucuya dərindən hiss etdirə bilir. Müharibə şəraiti insan psixikasında dərin izlər buraxan ekstremal vəziyyətlərdən biridir. Ana obrazı da bu ekstremal vəziyyətin təsiri altında daim narahatlıq, təşviş və qeyri-müəyyənlik hissi yaşayır. O, hər qapı döyüləndə, hər telefon zəngi eşidəndə övladı haqqında xəbər alacağı düşüncəsi ilə həyəcan keçirir. Müəllif ananın daxili gərginliyini müxtəlif psixoloji detallar vasitəsilə təqdim edir.

Onun yuxusuz gecələri, dalğın baxışları, susqunluğu və bəzən öz-özü ilə danışması keçirdiyi mənəvi sarsıntının göstəricisinə çevrilir. Əsərdə analıq hissi yalnız bioloji bağlılıq kimi deyil, yüksək mənəvi dəyər kimi təqdim olunur. Ana övladını qorumaq istəyir, lakin eyni zamanda, onun Vətən qarşısındakı borcunu dərk edir. Bu ziddiyyət obrazın daxili konfliktini gücləndirir. Bir tərəfdə övlad sevgisi, digər tərəfdə isə vətənpərvərlik dayanır. Yazıçı bu psixoloji qarşıdurmanı böyük ustalıqla əks etdirir.

Ana obrazının dözümlülüyü də diqqəti cəlb edir. Bütün ağrı və narahatlıqlara baxmayaraq, o, ruhdan düşmür, ümidini itirmir. Bu xüsusiyyət Azərbaycan qadınının mənəvi gücünü və iradəsini ifadə edir. Beləliklə, "Əsgər anası" əsərində psixologizm insanın ən ali hisslərindən biri olan analıq duyğusunun bədii ifadəsi vasitəsilə öz əksini tapir (Rəhimov, 2008; Rəhimov, 2009; Rəhimov, 2004).

*"Canavar balası" əsərində psixoloji vəziyyətlərin bədii təqdimatı.* "Canavar balası" əsəri insan xarakterinin mürəkkəbliyini və ekstremal vəziyyətlərdə davranış xüsusiyyətlərini əks etdirən maraqlı nümunələrdəndir. Yazıçı burada insanın daxilində baş verən hiss və duyğuların dəyişkənliyini, qorxu ilə mərhəmətin, instinktlə vicdanın qarşıdurmasını bədii şəkildə təqdim edir. Əsərdə qorxu hissi aparıcı psixoloji amillərdən biridir. Qəhrəmanlar təhlükə qarşısında özlərini qorumağa çalışır, lakin onların davranışları yalnız instinktiv reaksiyalarla məhdudlaşmır. İnsanilik, mərhəmət və vicdan hissi də qərarların qəbulunda mühüm rol oynayır.

Bu xüsusiyyət yazıçının insan təbiətinə nikbin münasibətini göstərir. Müəllif insan və təbiət münasibətlərinə də psixoloji baxımdan yanaşır. Canavar balasına münasibətdə qəhrəmanların keçirdiyi hisslər müxtəlifdir. İlk baxışda qorxu və ehtiyat hissi üstünlük təşkil etsə də, zaman keçdikcə mərhəmət və qayğı duyğuları ön plana çıxır. Beləliklə, yazıçı göstərir ki, insanın mənəvi keyfiyyətləri ən çətin vəziyyətlərdə belə özünü göstərə bilir. Əsərdə tənhalıq hissi də mühüm yer tutur.

Tənhalıq insanın daxili dünyasına qapanmasına, özünü və ətrafındakıları yenidən qiymətləndirməsinə səbəb olur. Bu baxımdan "Canavar balası" yalnız macəra xarakterli əsər deyil, həm də insan psixologiyasının dərin qatlarını açan bədii nümunə kimi qiymətləndirilə bilər. Yazıçı obrazların daxili aləmini təsvir edərkən emosional detallardan geniş istifadə edir. Qəhrəmanların baxışları,

tərəddüdləri, qərarsızlıqları və hisslərinin dəyişməsi psixoloji dinamikanı gücləndirir. Bunun nəticəsində, oxucu obrazların yaşadığı hissləri daha yaxından dərk edir.

*"Uşaq hekayələri"ndə uşaq psixologiyasının bədii ifadəsi.* Ağarəhimin yaradıcılığında uşaqların daxili aləminin təsviri xüsusi yer tutur. Yazıçı uşaq psixologiyasının incə məqamlarını böyük ustalıqla təqdim edir. Onun yaratdığı uşaq obrazları səmimiliyi, təbiiliyi və həyatiliyi ilə seçilir. "Uşaq hekayələri"ndə uşaqların dünyanı necə qavradıqları, hadisələrə hansı emosional münasibət bəslədikləri inandırıcı şəkildə əks etdirilir. Uşaqların sevinci, kədəri, incikliyi, qorxuları və arzuları onların yaş xüsusiyyətlərinə uyğun olaraq təqdim edilir. Müəllif uşaqların hisslərini böyüklərin məntiqi ilə deyil, məhz uşaqlara xas düşüncə tərzi ilə ifadə edir.

Yazıçı uşaqların xarakterinin formalaşmasında ailə mühitinin, dostluq münasibətlərinin və məktəb həyatının rolunu da göstərir. Uşaqların qarşılaşdıqları kiçik problemlər onların gələcək şəxsiyyətlərinin formalaşmasına təsir edən mühüm amillər kimi təqdim olunur. Bu hekayələrdə mərhəmət, dürüstlük, dostluq, əməksevərlik və böyüklərə hörmət kimi mənəvi keyfiyyətlərin aşılanması mühüm yer tutur. Müəllif didaktik yanaşmadan uzaq duraraq bu keyfiyyətləri uşaqların gündəlik davranışları və emosional yaşantıları vasitəsilə çatdırır. "Uşaq hekayələri"ndə qorxu hissinin təsviri də diqqəti cəlb edir. Uşaqlar üçün adi görünən hadisələr bəzən böyük həyəcan mənbəyinə çevrilir. Yazıçı bu hissləri təbii şəkildə təqdim etməklə uşaqların daxili aləmini daha dolğun şəkildə açır (Rəhimov, 2008; Rəhimov, 2009; Rəhimov, 2017).

Bununla yanaşı, uşaqların xəyal dünyası, onların gələcəyə olan ümidləri və həyata nikbin münasibətləri də əsərlərin emosional təsir gücünü artırır. Ağarəhim uşaqlara, sadəcə olaraq, tərbiyə obyekti kimi deyil, zəngin mənəvi aləmə malik fərdlər kimi yanaşır. Məhz bu xüsusiyyət onun uşaq obrazlarını oxucu üçün daha doğma və inandırıcı edir (Rəhimova, 2021).

## Müzakirə və Nəticə

Aparılmış tədqiqat göstərir ki, Ağarəhim Rəhimov Azərbaycan uşaq ədəbiyyatında və nəsrində insanın daxili aləmini, mənəvi-psixoloji vəziyyətini yüksək sənətkarlıqla əks etdirən yazıçılardan biridir. Onun əsərlərində psixologizm yalnız obrazların hiss və düşüncələrinin təsviri ilə məhdudlaşmır, eyni zamanda, onların davranışlarının, qərarlarının və cəmiyyətlə münasibətlərinin daxili səbəblərinin açılmasına xidmət edir.

Tədqiqat zamanı müəyyən edilmişdir ki, yazıçı əsərlərində müxtəlif yaş dövrlərində olan qəhrəmanların psixoloji xüsusiyyətlərini real və inandırıcı şəkildə təqdim edir. Uşaq obrazlarının daxili dünyası, onların sevinc, qorxu, həyəcan, narahatlıq, peşmançılıq və ümid kimi emosional vəziyyətləri psixoloji təsvir vasitələri ilə uğurla canlandırılır. Bu isə oxucunun obrazlarla emosional əlaqə qurmasına və onların yaşadıqları hadisələri daha dərindən qavramasına imkan yaradır.

Araşdırılan əsərlərdə müəllifin daxili monoloq, psixoloji portret, müəllif şərhi, dialoq və təhkiyə elementlərindən geniş istifadə etdiyi müəyyən edilmişdir. Həmin vasitələr obrazların xarakterinin açılmasına, onların mənəvi inkişaf mərhələlərinin izlənilməsinə və daxili ziddiyyətlərinin üzə çıxarılmasına şərait yaradır. Xüsusilə uşaqların və yeniyetmələrin mənəvi formalaşma prosesinin təsviri yazıçının psixologizm ustalığını nümayiş etdirən əsas cəhətlərdəndir. Müəyyən olunmuşdur ki, Ağarəhim Rəhimovun yaradıcılığında psixologizm tərbiyəvi məzmunla sıx bağlıdır. Yazıçı qəhrəmanların daxili dünyasını təsvir etməklə oxucuda humanizm, mərhəmət, xeyirxahlıq, dostluq, vətənpərvərlik və mənəvi məsuliyyət kimi keyfiyyətlərin formalaşmasına təsir göstərir. Bu xüsusiyyət onun əsərlərinin yalnız bədii deyil, həm də pedaqoji əhəmiyyətini artırır.

Tədqiqat nəticəsində belə qənaətə gəlinmişdir ki, yazıçının əsərlərində psixologizmin ifadəsi obrazların fərdi xüsusiyyətlərinin açılması, insan davranışlarının motivlərinin izahı və mənəvi-əxlaqi problemlərin işıqlandırılması baxımından mühüm əhəmiyyət daşıyır. Psixoloji təsvir vasitələrinin məqsədyönlü və sistemli istifadəsi müəllifin bədii üslubunun əsas xüsusiyyətlərindən biri kimi çıxış edir.

Beləliklə, Ağarəhim Rəhimovun bədii yaradıcılığı Azərbaycan ədəbiyyatında psixologizmin uğurlu təzahür nümunələrindən hesab edilə bilər. Onun əsərləri insan psixologiyasının bədii inikasını, xüsusilə də uşaq və yeniyetmə dünyasının incə çalarlarını öyrənmək baxımından mühüm elmi və praktik əhəmiyyətə malikdir. Tədqiqatın nəticələri gələcəkdə yazıçının yaradıcılığının müxtəlif istiqamətlərdən araşdırılması, eləcə də Azərbaycan uşaq ədəbiyyatında psixologizm probleminin daha geniş şəkildə öyrənilməsi üçün əsas mənbələrdən biri kimi istifadə oluna bilər.

## Ədəbiyyat

1. Cəfərov, C. (1978). *Azərbaycan nəsrində bədii təfəkkürün inkişafı*. Elm Nəşriyyatı.
2. Hacıyeva, İ. (2021). *Müasir Azərbaycan nəsrində psixologizm problemləri*. Adiloğlu Nəşriyyatı.
3. İmanov, M. (2021). *Müasir Azərbaycan nəsrində psixologizm.* Elm Nəşriyyatı.
4. Qasımzadə, N. (2005). *Psixoloji roman janrının inkişaf xüsusiyyətləri*. Şərq-Qərb Nəşriyyatı.
5. Rəhimov, A.N. (2008). *Əsərlər. 10 cilddə. I cild*. BQU Nəşriyyatı.
6. Rəhimov, A.N. (2008). *Əsərləri. 10 cilddə. II cild.* BQU Nəşriyyatı.
7. Rəhimov, A.N. (2009). *Əsərləri. 10 cilddə*. V cild. BQU Nəşriyyatı.
8. Rəhimov, A.N. (2009). *Əsərlər. 10 cilddə. VIII cild*. BQU Nəşriyyatı.
9. Rəhimov, A.N. (2004). *Povestlər, hekayələr, düşüncələr*. BAPQS Nəşriyyatı.
10. Rəhimov, A.N. (2017). *Uşaq hekayələri*. BQU Nəşriyyatı.
11. Rəhimova, S.A. (2021). *Ağarəhimin bədii yaradıcılığı*. Elm Nəşriyyatı.
12. Rzayeva, L.B. (2010). *Azərbaycan nəsrində psixoloji üslubun formalaşması*. Elm Nəşriyyatı.